


# Ana və uşaq sağlamlığının yaxşılaşdırılması İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin diqqət mərkəzindədir

Vətəndaşlar icbari tibbi sığorta ilə Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərdən ödənişsiz istifadə edə bilirlər. Bu xidmətlər arasında ana və uşaqların sağlamlığının qorunması məqsədilə qarşılanan tibbi xidmətlər də var.

**İcbari tibbi sığorta ilə hamilə qadınların profilaktik müayinələri, ambulator və stasionar şəraitdə onlara göstərilən tibbi xidmətlər təminata daxildir.**

Tibbi xidmətlərə doğuşaqədər mama-ginekoloji yardımın göstərilməsi və dispanser nəzarət, həmçinin hamiləlik dövründə, doğuşdan sonrakı dövrdə zahı qadınların müşahidəsi, müalicəsi, profilaktik müayinələr daxildir. **Bu xidmətlər hamiləlik dövründə baş verə biləcək fəsadların qarşısını almaq, ana və uşaq sağlamlığını qorumaq məqsədilə göstərilir.**

Hamiləliyin fizioloji gedişi zamanı hamilə qadının tibb müəssisəsinə 7 gəlişi tövsiyə olunur. Xidmətlər Zərfi ilə hamilə qadına arterial təzyiqin ölçülməsi, nəbzin sayılması, bədən kütləsi indeksinin, qanda şəkərin, qan qrupu, qanın klinik analizi (hemoqlobin), sidiyin ümumi analizi kimi tibbi xidmətlər göstərilir. Həmçinin hepatit B və C, sifilis testləri, insan immunçatışmazlığı virusu (İİV), skrininq testi (rubella-məxmərək), uşaqlıq yolundan yaxmanın mikroskopik müayinəsi icbari tibbi sığorta ilə qarşılanır. Tibb müəssisəsində hamiləliyin 12-ci həftəsinə qədər fol turşusunun təyini, USM, doppler müayinəsi, dölün ürək döyüntülərinə qulaq asılması və digər müayinələr də həyata keçirilir.

Dölün diaqnostik dəyərləndirilməsi (fetal MRT), daun sindromuna görə qan nümunəsində hormonların təyini Xidmətlər Zərfi ilə təminata alınır.

Hamilə qadın tibbi xidmətlərdən istifadə etmək üçün ilk növbədə yaşadığı ərazi üzrə qadın məsləhətxanasına, Ailə Sağlamlıq Mərkəzinə və ya digər ambulator xidmət göstərən dövlət tibb müəssisələrinə yaxınlaşmalıdır. Tibb müəssisəsi tərəfindən hamiləliyin 30-cu həftəsindən sonra mübadilə vərəqəsi verilir, hamilə doğuşun təşkili üzrə TƏBİB-in tabeliyindəki müvafiq ixtisaslı dövlət tibb müəssisəsinə yönləndirilir.

Doğuş və klassik qeysəriyyə kəsiyi əməliyyatı, stasionar yatış zamanı dərman, tibbi sərf və qidalanma, laborator və instrumental müayinə, diaqnostika və müalicə tədbirləri ödənişsiz olaraq göstərilir. Habelə, vaxtından əvvəl doğulmuş körpələrin kuvəzdə saxlanılması da icbari tibbi sığorta ilə qarşılanır.

Qeyd edək ki, doğuşdan sonrakı dövrdə zahı qadınların müayinə və müalicəsi, yenidoğulmuşların müşahidəsinin aparılması və ana südü ilə qidalanmaya dair məsləhətlərin verilməsi də ödənişsiz icra olunur.

**Agentlik tərəfindən alınan müasir tibbi avadanlıqlar, cihazlar və alətlər ana və uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin yaxşılaşdırılmasına yönəlib.**

Avadanlıqlar hamilə qadınların, habelə perinatal, neonatal və postneonatal dövrlərdə uşaqların müxtəlif müayinə və müalicəsində istifadə olunur.

Transabdomenal və transvaginal ginekoloji müayinələrin aparılmasına imkan verən **müasir ultrasəs cihazı** uşaqlıqdaxili polipləri, mioma və törəmələrin aşkarlanmasında istifadə olunur. Ginekoloji USM zamanı uşaqlıq, yumurtalıqlar, uşaqlıq boynu, borular və kiçik çanaq nahiyəsi müayinə edilir.

Hamiləliyin gedişatının izlənilməsi üçün nəzərdə tutulan üçölçülü (3D) USM cihazı isə dölün inkişaf etaplarının daha dəqiq görüntülənməsinə imkan verir. Bu da müalicə həkiminin operativ qərarlar verməsini mümkün edir. Bu müayinə metodu ilə hamiləliyin daha erkən mərhələlərində dölün fizioloji və patoloji inkişafı haqqında məlumat əldə edilir.

Bununla yanaşı, ana bətnində dölün ürək döyüntülərinə əsasən vəziyyətinin qiymətləndirilməsinə imkan verən **kardiotokoqrafiya (KTQ) cihazı** ilə həmçinin bətndaxili oksigen çatışmazlığını (hipoksiya) və uşaqlığın tonusunu qiymətləndirmək mümkündür.

Vaxtından əvvəl doğulmuş körpələrin saxlanılması üçün **inkubator (küvəz) və fototerapiya cihazından** istifadə olunur. Sensorlu panel vasitəsi ilə inkubatorlarda havanın və körpənin bədən hərarətinə, rütubətə nəzarət etmək mümkündür. Yenidoğulmuşların rentgenoloji müayinəsi üçün küvəzlər rentgen kasetlərlə təchiz edilib.

Vəziyyəti ağır olan vaxtından əvvəl doğulmuşların respirator terapiyası üçün isə **20 ədəd süni tənəffüs cihazı** alınıb. Cihazlar yenidoğulmuşları fasiləsiz oksigenlə təmin etməklə onların həyatda qalması üçün nəzərdə tutulub.

**İcbari tibbi sığortanın Xidmətlər Zərfi ilə təminata alınan profilaktik tibbi müayinələrə uşaqların icbari dispanserizasiyası və uşaqların ağız boşluğunun mütəmadi müayinəsi daxildir.**

İlkin tibbi-sanitariya yardımı üzrə müayinələr uşaqların qeydiyyatda olduqları poliklinika və ya ailə sağlamlıq mərkəzlərində ödənişsiz aparılır. Profilaktik müayinələr uşaqların sağlamlıqlarının vaxtaşırı yoxlanılması, yarana biləcək xəstəliklərin erkən aşkarlanması, vaxtında müalicəyə cəlb olunmasına və xəstəlik inkişaf etmədən qarşısının alınmasına xidmət edir.

## 18 yaşadək uşaqların icbari dispanserizasiyası

İcbari dispanserizasiya uşaqların yaşı və sağlamlıq vəziyyəti nəzərə alınaraq təsdiq edilmiş müayinə cədvəlinə əsasən həyata keçirilir. 3 yaşa qədər uşaqlarda müayinələr il ərzində bir neçə dəfə, 3 yaşdan 18 yaşadək uşaqlarda isə ildə bir dəfə aparılır. Qeyd etməliyik ki, 3 yaşlı uşaqların həkim-pediatr tərəfindən müayinəsi 6 aydan bir həyata keçirilir.

Uşaqların müayinəsi həkim-pediatr, oftalmoloq, otorinolarinqoloq (LOR həkimi), həkim-nevropatoloq, loqoped və stomatoloqlar tərəfindən aparılır. Profilaktik müayinələr zamanı uşaqların müxtəlif orqan və sistemlərinin, xüsusilə sinir sisteminin, çəkinin dinamikası və anadangəlmə inkişaf qüsurlarının aşkarlanması, danışıq, qamət, eşitmə, görmə, qulaq, burun, boğaz orqanlarının yoxlanılması, uşağın fiziki və psixi inkişafına nəzarət və digər tibbi xidmətlər göstərilir. Müayinə zamanı ehtiyac yaranarsa, müvafiq ixtisas həkiminə əlavə müayinə-müalicə üçün göndərişlər verilir.

## Uşaqların ağız boşluğunun mütəmadi müayinəsi

Erkən yaş dövründə ağız boşluğunun müayinəsi uşağa dişlərinə düzgün qulluq etməyi öyrədən, həkimdən və stomatoloji alətlərdən qorxmadan vaxtında diş müayinəsinə gəlməyi sövq edən və nəticə etibarı ilə uşaqların ümumi sağlamlığına müsbət təsir göstərən müayinə metodudur.

Uşaqlarda ağız boşluğunun müayinəsi ailə həkimi, sahə pediatrı, sahə terapevti tərəfindən aparılır. Müayinə zamanı həkim uşağın yaş fiziologiyasına uyğun dişlərinin inkişafını qiymətləndirir, hər hansı xəstəliklə bağlı (yaralar-stomatit, aftoz yaralar, gingivit - diş ətinin iltihabı xəstəliyi və s.) ağız boşluğunu sanasiya edir.